

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 213 (21.874)

9 noyabr 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Noyabrın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

Prezident İlham Əliyev qeyd edib ki, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Azərbaycanda 2 milyardıncı ton neft hasil edilibdir. Bu, tarixi bir hadisədir. 1994-cü il Azərbaycanın neft sənayesində dönüş nöqtəsi idi, "Əsrin kontraktı"nın tarixi əhəmiyyəti artıq həyatda özünü sübut edib. Bu il "Əsrin kontraktı"nın uzadılması ilə bağlı yeni saziş imzalanıb. Bu da tarixi hadisədir. 2050-ci ilə qədər daha yaxşı şərtlərlə kontrakt imzalanıb. Bu kontraktın icrası nəticəsində Azərbaycana 3,6 milyard dollar sadəcə olaraq bonus şəklində veriləcəkdir. Bu, bir daha onu göstərir ki, bizim çox böyük və zəngin təbii resurslarımız var.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də şahmat üzrə Avropa komanda çempionatının qaliblərindən ibarət nümayəndə heyətini qəbul edib.




## Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olub





Noyabrın 8-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının medallarının, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları ölkəmizin yüksək fəxri adlarına layiq görülmələri münasibətilə təbrik etmişdir. Hər il noyabrın 9-nun ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd olunduğunu diqqətə çatdıran Ali Məclisin Sədri dövlət bayrağımızın ucaldılmasının təşəbbüskarlarına ehtiramını bildirmiş, müstəqilliyimizin möhkəmlənməsində əməyi olanlara təşəkkür etmiş, təltif olunanları və onların timsalında bütün muxtar respublika əhalisini Dövlət Bayrağı Günü münasibətilə təbrik etmişdir.



Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının medallarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim edib.

Təltif olunanlardan Müzəffər Əsgərov, Əfsər Novruzov, Solmaz Axundova, Cəmşid Abdullayev, Bəhram Gülməmmədov, Ruhiyyə Nəcəfova, Musa Əliyev, Məmməd İsmayılov, Ələkbər Kərimov, Vəli Novruzov, Ramiz Həsənov, Zenfira Allahverdiyeva, Baba Babayev və Yeganə Mustafayeva əməklərinə verilən yüksək qiymətə görə çalışdıqları kollektivlər adından minnətdarlıq ediblər. Qeyd olunub ki, ümummilli liderimizin siyasi xəttinin davam etdirilməsi Naxçıvan Muxtar Respublikasını davamlı inkişaf yoluna çıxarıb. Muxtar respublikada geniş quruculuq işləri aparılır. Sakinlərin rahat yaşaması və işləməsi qayğısına qalınır. Təltif olunanlar bundan sonra da ulu öndərin siyasi xəttinə sadiq qalaraq ölkəmizin inkişafında öz töhfələrini əsirgəməyəcəklərinə söz veriblər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dövlət Bayrağı Günü ilə bağlı tədbirlər keçirilib

***Naxçıvan Dövlət Universitetində Dövlət Bayrağı Günü münasibətilə dəyirmi masa keçirilib.***

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Dövlət Bayrağının hər bir Azərbaycan vətəndaşının qürur mənbəyi, müstəqil dövlətimizin isə şərəfi, qüdrəti olduğunu və gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasında böyük rol oynadığını qeyd edib.

Azərbaycanın müstəqillik rəmzi olan Dövlət Bayrağının ilk dəfə yaranması tarixindən danışan rektor dəyirmi masa iştirakçılarının diqqətinə çatdırıb ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə üçrəngli bayrağımız 1990-cı il noyabrın 17-də ilk dəfə Naxçıvanda ucaldılıb. Bu addım ölkə əhalisi tərəfindən tarixi və mütərəqqi bir hadisə kimi dəyərləndirilir.

Universitetin Elmi şurasının elmi katibi, dosent Elçin Zamanov, Tarix-filologiya fakültəsinin dekanı, dosent Rəsul Bağırov çıxış edərək bildiriblər ki, ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Ona görə də özünütəsdiq simvolu olan bayraq bütün dünyada qürur və güvənc yeri sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin ən real ifadəsidir. Məhz bu baxımdan xalqımızın azadlığını, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini tərənnüm edən üçrəngli bayrağımız bizim milli qürurumuzdur.

Tədbir mövzu ətrafında müzakirələrlə davam edib. Tələbələrin bayrağa həsr olunmuş şeirləri, dövlət rəmzlərinin təbliği istiqamətində tələbə-gənclər arasında aparılacaq tədbirlərlə bağlı fikir və təklifləri səsləndirilib.

Dəyirmi masada Dövlət Bayrağımıza həsr olunmuş videoçarx nümayiş olunub.

**Nərmin CABBAROVA**

"Naxçıvan" Universitetində 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə "Bayrağımız qürurumuzdur" mövzusunda keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra səhnəyə üçrəngli bayrağımız gətirilib.

Tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, 1918-ci il iyun ayının 24-də Dövlət Bayrağı haqqında ilk qərar verilərək üzərində ağrəngli aypara və səkkizguşəli ulduz təsvir olunan qırmızı bayraq Dövlət Bayrağı kimi qəbul olunub. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 9 noyabr tarixli qərarı ilə həmin bayraq aypara və səkkizguşəli ulduz qalmaqla üçrəngli – mavi, qırmızı və yaşıl zolaqlardan ibarət bayraqla əvəz edilib. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə bu bayraq ləğv edilib. Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Ali Məclisinin sessiyasında qaldırılıb. Həmin sessiya Azərbaycanda müstəqil dövlət quruculuğu prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli Fərmanı ilə 9 noyabr tarixi Dövlət Bayrağı Günü elan edilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" Sərəncamı milli rəmzlərimizin yaşadılması və təbliği baxımından əhəmiyyət kəsb edir.

Tədbirin bədii hissəsində tələbələrin ifasında bayrağımıza həsr olunmuş şeirlər səsləndirilib, milli rəqslərimiz nümayiş etdirilib. Universitetin xarici ölkələrdən olan tələbələrinin ifa etdikləri musiqi nömrələri tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

**Nuray ƏSGƏROVA**

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2009-cu il noyabrın 17-də hər il 9 noyabr tarixinin “Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü” kimi qeyd edilməsi barədə Sərəncam imzalamışdır. Ölkəmizdə dövlət rəmzlərinə hörmət və ehtiramın göstəricisi olaraq hər il noyabrın 9-u möhtəşəm bayram kimi qeyd edilir.***



9 Noyabr Dövlət Bayrağı Günüdür

# Dövlət bayrağımız qürur mənbəyimizdir

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı milli mədəniyyətini, zəngin ənənə və dəyərlərini yaşadaraq yad təzahürlərdən hifz etməklə tarixi etnos kimi mövcudluğunu daim qorumuşdur. Tariximizin ən dəyərli eksponatları sırasında yer tutan qədim dövlət rəmzləri və bayraqlar bizə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tarixini öyrənməyə, araşdırmağa geniş imkanlar açır. Müasir dövrdə isə bayraq xalqın müstəqillik, suverenlik, milli azadlıq, istiqlal ideallarını simvolizə edir. Ona görə də bu gün dövlət bayrağına hörmət və ehtiram, üçrəngli bayrağımıza olan məhəbbət və vətəndaş sevgisi hər bir azərbaycanlının Vətən qayğısına, millət duyğusuna çevrilmişdir. Müstəqil Azərbaycan türkçülüyü, müasirliyi və İslam sivilizasiyasını təcəssüm etdirən üçrəngli bayrağımız altında inamla irəliləyir, iqtisadi və siyasi gücünü getdikcə artırır.

Respublikamız öz müstəqilliyini əldə etdiyi dövrlərdə xalqın milli kimliyinin pasportu hesab edilən dövlət atributları da yaradılmışdır. Azərbaycan xalqı XX əsrdə iki dəfə – 1918-ci il mayın 28-də və 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi əldə etmişdir. 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik ənənələrinin formalaşması baxımından mühüm rol oynamış və müstəqil dövlətə xas olan atributlar təsis edilmişdir. Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında qərara əsasən üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir olunan qırmızı bayraq dövlət bayrağı kimi qəbul edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 9 noyabr tarixli Qərarı ilə həmin bayraq üçrəngli – mavi, qırmızı və yaşıl zolaqdan ibarət olan bayraqla əvəz olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci il aprelin 28-də süqut etməsi və sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımız 70 il səmalarda deyil, xalqın ürəyində dalğalandı. Buna görədir ki, xalqımızın azadlıq, müstəqillik mübarizəsi heç zaman səngimədi. Cümhuriyyət dövründə qazandığı dövlət müstəqilliyinə ötən əsrin sonunda yenidən qovuşan xalqımız öz milli atributlarına hörmət və sadiqliyini bir daha nümayiş etdirdi. 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Sovetinin sessiyasında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə məhz Naxçıvanda qaldırıldı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həmin sessiyada müstəqil Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlər müzakirə olundu, “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” tarixi qərarlar qəbul edildi. “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” Qərara əsasən müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olundu.

Bununla əlaqədar Ali Məclisin Qərarında deyilirdi:

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi qərara alır:

*1) İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2) Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3) Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin”.*

Məhz bu qərardan sonra – 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikasının Ali Soveti üçrəngli bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etmişdir.

Ulu öndərimiz Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Dövlət Bayrağı da milli suverenliyin simvolu kimi təsdiq olunmuş, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında çoxsaylı normativ aktlar qəbul edilmişdir. Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli Qanunu ilə Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları müəyyənləşdirilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev dövlət bayrağına münasibətdə hər kəsin qarşısında vahid amal uğrunda birləşmək vəzifəsi qoyaraq demişdir: ***“Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmasını istəyirsə, kim Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında birləşməlidir”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də “Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması haqqında” Sərəncam imzalamış, həmin ilin dekabrında Dövlət Bayrağı Meydanının təməli qoyulmuş, 2010-cu il sentyabrın 1-də isə Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimi keçirilmişdir.

Bu gün ölkəmizin digər guşələrində də yaradılan bayraq meydanları dövlət atributlarımıza olan sevgi və hörmətin göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 22 avqust tarixdə imzaladığı “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” Sərəncam bu baxımdan mühüm əhəmiyyət kəsb edir. 2014-cü il noyabrın 17-də Dövlət Bayrağı Meydanı və Muzeyinin təntənəli açılış mərasimi keçirilmişdir. Açılış mərasimində çıxış edən Ali Məclisin Sədri demişdir: ***“Dövlətçilik tariximizdə mühüm yer tutan dövlət rəmzləri və bayraqlar bir tərəfdən nadir dövlətçilik irsinin varisləri kimi bizdə iftixar hissi doğurursa, digər tərəfdən Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə də geniş imkanlar yaradır. Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi bu baxımdan mühüm əhəmiyyətə malik olacaqdır... Dövlət Bayrağı Meydanı və Muzeyini ziyarət edən hər bir insan, hər bir gənc dövlət rəmzlərinin tariximizdəki yeri barədə məlumatlandırılmalı, dövlət atributlarının mahiyyəti və əhəmiyyəti geniş təbliğ olunmalı, ümummilli liderimiz Heydər Əliyevin səyi ilə üçrəngli bayrağımızın ilk dəfə Dövlət Bayrağı kimi qaldırıldığı gün – noyabrın 17-si hər il Naxçıvan Muxtar Respublikasında əlamətdar tarixi gün kimi qeyd edilməlidir”.***

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında” Sərəncam imzalamışdır. Sərəncama əsasən hər il noyabr ayının 17-si “Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü” kimi qeyd olunur.

Naxçıvan şəhərindəki Bayraq Meydanında unikal quruluşa malik Bayraq Muzeyi yaradılmışdır. Muzeydə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunmuş “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” Qərarın surəti və həmin tarixi günə aid fotoşəkillər nümayiş olunur. Tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları muzeyin ekspozisiyasında yerləşdirilmişdir.

Naxçıvan şəhərindəki Dövlət Bayrağı Meydanı və Muzeyində müxtəlif tədbirlərin keçirilməsi artıq ənənə halını almışdır. Muxtar respublikanın nazirlik, komitə, agentliklərinin, idarə, müəssisə və təşkilatlarının kollektivləri muzeyi ziyarət edir, burada onlara dövlət və döyüş bayraqlarımız haqqında ətraflı məlumatlar verilir. Bayrağımıza ehtiram hissini gücləndirmək məqsədilə dövlət qulluğuna yeni təyin olunmuş gənclərin andiçmə mərasimlərinin burada keçirilməsi onların bayrağımız haqqında daha geniş bilgilərə malik olmalarına şərait yaradır.

*Milli qürurumuzun rəmzi olan üçrəngli bayrağımız hər zaman ucalarda tutulacaq və heç vaxt enməyəcəkdir. Azərbaycan bayrağını müqəddəsləşdirən təkcə onun and yerimiz olması deyil, bayraq həm də dövlətimizin, bütövlükdə, xalqımızın gələcək yolunu müəyyənləşdirən bələdçidir. Milliliyi, dini inancımızı və müasirliyi təcəssüm etdirən bayrağımız azərbaycanlılara öz soykökünü xatırladır, üzərində dalğalanan torpağın qədimliyini göstərir. Bu gün ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir.*

**Rauf KƏNGƏRLİ**

## Muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Dövlət Bayrağı Muzeyi arasında interaktiv dərs təşkil olunub



***Noyabrın 8-də muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Dövlət Bayrağı Muzeyi arasında interaktiv dərs keçilib.***

Açıq dərsdə muzeyin bələdçisi Ayşən Mehdiyeva tərəfindən qeyd edilib ki, dövlət rəmzləri istənilən dövlətin tanınma nişanı, suverenliyinin, özünəməxsusluğunun rəmzidir. Bu rəmzlərdə hər bir dövlətin, xalqın çoxəsrlik tarixi, milli dəyərləri və ənənələri öz əksini tapır. Qədim dövlətçilik tarixi və ənənələri olan çağdaş Azərbaycan dövlətinin müstəqilliyini və şərəfli keçmişini əks etdirən dövlət rəmzləri sırasında Azərbaycan Respublikasının bayrağı müstəsna yer tutur.

Qeyd olunub ki, milli düşüncəmizdə əsas dövlət rəmzlərindən olan bayrağa xüsusi münasibət tarixboyu özünü qabarıq göstərib, xalqımızın milli mövcudluq nişanəsi sayılıb. Üçrəngli bayrağımızın dövlət rəmzlərindən biri kimi qəbul edilərək ucaldılması isə 1918-ci ilin 28 mayında yaradılan Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. Həmin gün Azərbaycan Milli Şurası Tiflisdə İstiqlal Bəyannaməsi ilə dövlət müstəqilliyini bütün dünyaya bəyan edib. Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Azərbaycan Müvəqqəti Hökumətinin 1918-ci il 24 iyun tarixli qərarı ilə üzərində ağ aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı rəngli bayraq Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı kimi qəbul edilib. 1918-ci il noyabrın 9-da isə Nazirlər Kabinetinin Bakıda keçirilən iclasında Fətəli xan Xoyski milli bayraq haqqında məruzə ilə çıxış edib. Müzakirələrdən sonra yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq Dövlət bayrağı kimi qəbul olunub. Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qaldırılıb.

Diqqətə çatdırılıb ki, muxtar respublika rəhbərinin 2014-cü il 22 avqust tarixdə imzaladığı “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” Sərəncam mühüm əhəmiyyət kəsb edir. 2014-cü il noyabrın 17-də Dövlət Bayrağı Meydanı və Muzeyinin təntənəli açılış mərasimi keçirilib.

Vurğulanıb ki, bütün zamanlarda xalqımız bayrağımıza müqəddəs varlıq kimi baxıb, həmişə onu uca tutub, lazım gəldikdə igidlərimiz bayraq uğrunda canlarından belə keçiblər. Azərbaycanın bayrağı bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Ona görə də hər bir vətəndaş, xüsusən gənc nəsil bunu dərk etməli, qiymətləndirməlidir. Bizim bayrağımız qürur mənbəyi olduğu üçün gənclərimizdə Azərbaycan bayrağına sevgi yaradılması önəmli vəzifədir. Bayraq sevgisi, eyni zamanda Vətənə məhəbbəti ifadə edir. Bayraq hər bir millətin azadlıq rəmzidir, siyasi varlığını və müstəqilliyini təsdiq edir.

Məlumat üçün bildirək ki, açıq dərsi muxtar respublikanın 207 məktəbindən şagirdlər izləyib.

**Səbuhi HÜSEYNOV**



*Naxçıvan Qızlar Liseyi*



*Şərur şəhər 2 nömrəli tam orta məktəb*



*Babək qəsəbə 1 nömrəli tam orta məktəb*

*Milli birlik və həmrəylik ideyası sivil insan cəmiyyəti formalaşandan mövcud olmuş, müəyyən inkişaf yolu keçərək təkmilləşmiş, hər bir xalqın vahid məqsədlər ətrafında birləşməsində vacib rol oynamışdır. Qloballaşan dünyada isə ayrı-ayrı xalqların, dövlətlərin sülh, əmin-amanlıq, tərəqqi məqsədilə yaxınlaşdığı, habelə bəşər sivilizasiyasının yeni-yeni mənəvi dəyərlər, humanizm çalarları ilə zənginləşdiyi bir vaxtda milli özünüdərkin təsdiqi, insanların öz kökünə bağlılığı getdikcə daha böyük əhəmiyyət daşıyır. XX əsrin sonlarında Azərbaycan Respublikası da öz dövlət müstəqilliyini bərpa etməsi ilə xalqımızın ictimai-siyasi, milli-mənəvi və mədəni həyatında keyfiyyətcə yeni tarixi mərhələ başlanmışdır. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə elan edilmiş milli-mənəvi birliyə çağırış ümumxalq mənafelərimizin həyata keçirilməsi naminə soydaşlarımızın Azərbaycançılıq ideyası əsasında sıx birləşməsi prosesinin başlanğıcını qoymuşdur.*

***2001-ci il noyabrın 9-10-da Dünya Azərbaycanlılarının Birinci Qurultayı keçirilmişdir***

# Dünya azərbaycanlılarının həmrəyliyi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır

Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini ulu öndər hələ 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən diqqət mərkəzində saxlamışdır. Ümummilli liderimizin rəhbərliyi ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərar qəbul edilmişdir. Qərara əsasən 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olunmuşdur. Bayramın bütün dünya azərbaycanlıları tərəfindən birlik, həmrəylik günü kimi hər il böyük təntənə və qürur hissi ilə qeyd edildiyini bildirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 dekabr "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" kimi elan edilmişdir".***

Ulu öndərimiz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarla münasibətlər qurmaq, onları ümummilli mənafelər naminə səfərbər etmək, yaşadıqları ölkələrdə Azərbaycanın tanıdılması istiqamətində sistemli tədbirlərin icrasına başlamaq kimi vəzifələri xarici siyasət xəttində prioritet fəaliyyət istiqaməti kimi müəyyənləşdirmişdir. Ölkənin qüdrətinin yalnız siyasi və iqtisadi resurslarla yox, xaricdə formalaşdırdığı diaspor və lobbiçilik fəaliyyəti ilə də ölçüldüyünü qeyd edən dahi şəxsiyyətin uzaqgörən siyasəti nəticəsində bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Məhz xalqımızın böyük oğlunun təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli həmrəyliyin ən yüksək zirvəsi, diaspor quruculuğu sahəsində həlledici mərhələnin başlanğıcı olmuşdur. Qurultayda 36 xarici ölkədə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatdan 403 nümayəndə və 63 qonaq iştirak etmişdir. Dahi rəhbərimiz qurultaydakı nitqində dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi və qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsinin vacibliyini vurğulayaraq demişdir: ***"Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Xaricdə yaşayan azərbaycanlılar isə gərək indi müstəqil Azərbaycan ilə daha sıx əlaqələr qursunlar. Bunlar dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtdir".***

Sonrakı illərdə də dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində mühüm tədbirlər görülmüş, ulu öndər 2002-ci ildə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə Fərman imzalamışdır. Bu, xaricdə fəaliyyət göstərən Azərbaycan icmalarının, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən idarə olunmasına şərait yaratmışdır. 2002-ci il dekabrın 27-də isə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanun qəbul edilmişdir. Ümummilli liderimiz tərəfindən diaspor quruculuğu sahəsində mühüm qərarların qəbulu dünya azərbaycanlılarının mütəşəkkilliyini təmin etmişdir. Dahi şəxsiyyətin dünya azərbaycanlıları tərəfindən böyük nüfuz və etimada malik şəksiz milli lider kimi qəbul edilməsi isə soydaşlarımızın Azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşməsinə şərait yaratmışdır. ***"Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən",*** – deyən ulu öndər həmrəylik məsələsini milli-mənəvi vəzifə kimi irəli sürmüşdür.

Dahi şəxsiyyətin dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktuallığını qoruyur. Bu siyasət Heydər Əliyev siyasi yolunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu sahədə ardıcıl və qətiyyətli addımlar atılır. Dövlət başçısının 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir. Həmin qurultayda Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin ideyalarını daha da inkişaf etdirərək təkcə dünya azərbaycanlılarının birləşdirilməsi ilə kifayətlənməməyi, Azərbaycan və türk diasporlarının birləşərək amansız və məkrli düşmənə qarşı vahid cəbhədə mübarizə aparmasını tövsiyə etmişdir.

Dövlət başçısının müvafiq sərəncamına uyğun olaraq 2011-ci il iyulun 5-də isə Bakı şəhərində Dünya Azərbaycanlılarının III Qurultayı keçirilmiş, nüfuzlu tədbirdə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkələrdə yaşayan azərbaycanlı elm, ictimai və mədəniyyət xadimləri, iş adamları iştirak etmişlər. III Qurultay bir daha göstərmişdir ki, Azərbaycanın inamla irəliləyərək iqtisadi artım tempinə görə dünyanın lider dövlətinə çevrilməsi, Cənubi Qafqazda əsas söz və nüfuz sahibi kimi çıxış etməsi dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizi daha da ruhlandırmış, onların müstəqil dövlətin xoşbəxt sabahına inamını artırmışdır. 2016-cı il iyunun 3-də Bakıda, Heydər Əliyev Mərkəzində öz işinə başlayan Dünya Azərbaycanlılarının IV Qurultayında bu istiqamətdə görülmüş işlər, qəbul edilmiş qərarlar, tədbirlər geniş müzakirə olunmuşdur. İki gün davam edən tədbirdə 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq iştirak etmişdir.

Xaricdə yaşayan soydaşlarımızın Azərbaycançılıq ideologiyası ətrafında sıx birləşməsində, milli diaspor təşkilatların yaranmasında və inkişafında dünya azərbaycanlılarının həmrəyliyi və birliyi vacib şərtdir. Dünya azərbaycanlılarının qurultayları məhz bu birliyin təntənəsinə çevrilmişdir. Bu gün harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz güc və qüvvəsini Azərbaycan dövlətçiliyi uğrunda səfərbər etməlidir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – Azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər".***

**"Şərq qapısı"**

# Naxçıvan Dövlət Tarix Muzeyinə 156 eksponat təqdim olunub



Noyabrın 8-də Nehrəm kənd sakini, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev, Ordubad rayonunun Gilançay kənd sakini Xəyal Fətəliyev, Naxçıvan şəhər sakini Sədi Məmmədov, Babək rayon sakini İnayət Fətullayev, Şahbuz şəhər sakini Şahin Orucov, Culfa rayonunun Ərəzin kənd sakini Mahmud Zeynalov tərəfindən qədim mədəniyyətimizi və tariximizi əks etdirən mis və saxsı məişət əşyaları, kənd təsərrüfatı alətləri, toxuculuq alətləri və sair olmaqla, 156 eksponat Naxçıvan Dövlət Tarix Muzeyinə təqdim edilib.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, nazirlik tərəfindən muzeylərimiz üçün maddi-mədəniyyət nümunələrinin toplanması işi diqqətdə saxlanılır və bu işdə muxtar respublika sakinləri fəallıq göstərirlər. Təkcə 2016-cı il ərzində muzeylərə 1500-dən çox, bu ilin 9 ayı ərzində isə 993 eksponat daxil olub.

Natəvan Qədimova maddi-mədəniyyət nümunələrini muzeyə təqdim etdiklərinə görə sakinlərə təşəkkürünü bildirib, mədəniyyətimizin inkişafına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə bütün mədəniyyət işçiləri adından minnətdarlıq edib.

Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov vətəndaşların təqdim etdikləri eksponatların muzeyin zənginləşməsinə xidmət etdiyini bildirib.

Eksponatları muzeyə təqdim edənlərdən Akif Hacıyev və Sədi Məmmədov çıxış edərək qeyd ediblər ki, hər bir vətəndaş mədəni irsimizin qorunub yaşadılması sahəsində həyata keçirilən tədbirlərə öz töhfəsini verməyə çalışır. Bu eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin qorunub yaşadılmasına və gələcək nəsillərə çatdırılmasına xidmət edir.

**Əli RZAYEV**

# "Naxçıvan xanlığının bayraqları" mövzusunda açıq dərs keçilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə "Naxçıvan xanlığının bayraqları" mövzusunda açıq dərs keçilib.***

Naxçıvan Musiqi Kollecinin bir qrup tələbəsinin iştirakı ilə keçilən dərsdə mərkəzin elmi katibi Emin Məmmədov bildirib ki, qədim zamanlardan bütün dövlətlərin özünəməxsus simvolları, rəmzləri olub və həmin rəmzlər hər bir ölkənin tarixi və dövlətçilik ənənələrində xüsusi yerə malikdir. Zəngin dövlətçilik tarixinə malik olan Azərbaycanın ərazisində yaradılan bir sıra dövlətlərin də özünəməxsus bayraqları olub. Bu baxımdan 1747-ci ildə əsası Kəngərli tayfasının başçısı Heydərqulu xan tərəfindən qoyulan Naxçıvan xanlığı daha çox diqqəti cəlb edir.

Qeyd olunub ki, ötən illərdə Naxçıvan xanlığının bayraqları Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, bayraqşünas Pərvin Gözəlov tərəfindən Sankt-Peterburq şəhərinin Ermitaj Muzeyinin bayraq fondunda və arxivində aparılan elmi tədqiqatlar nəticəsində aşkarlanıb. Naxçıvan xanlığının bizədək gəlib çatan bayraqlarından biri 1812-ci ilin 19-20 oktyabrında Aslandüz döyüşündə general-mayor Pyotr Kotlyarevski tərəfindən qənimət kimi götürülmüş döyüş bayrağıdır. Dövlət bayrağı isə 1827-ci ildə xanlığın işğalı zamanı general Paskeviç tərəfindən qənimət kimi əldə edilmiş bayraqdır. Həmin bayraq bu günə qədər müxtəlif xarici muzeylərin fondlarında "XVIII-XIX əsr müsəlman bayrağı" kimi saxlanılıb.

Vurğulanıb ki, qızılı ipəkdən hazırlanmış və bir-birinə üfüqi şəkildə tikilmiş üç parçadan ibarət olan dövlət bayrağının eni 144, uzunluğu 178 santimetrdir. Bayrağın üzərində 6 ədəd səkkizguşəli ulduz və nəbati elementlər əks edilib. Üst zolağın üzərində qızılı saplarla ərəb qrafikası ilə "Qurani-Kərim"in "Səff" surəsindəki "Allah dərgahından kömək, qələbə yaxındır, möminlərə müjdə ver, Ya Məhəmməd" ayəsi həkk edilib.

Döyüş bayrağının uzunluğu 145, eni isə 159 santimetrdir. Moruğu rəngli bayrağın yuxarı sağ tərəfində yerləşən mavi rəngli lövhəcikdə "Bismillah", sol tərəfində "Qurani-Kərim"dən "əl-Fəth", bir qədər aşağıda isə "əl-Bəqərə" surələrinin bir hissəsi yazılıb.

Diqqətə çatdırılıb ki, Naxçıvan xanlığına məxsus olan bayraqlar Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində nümayiş etdirilir. Bununla yanaşı, Naxçıvanşünaslıq Mərkəzində Naxçıvan xanlığının bayraqları və bu mövzunu özündə əks etdirən olduqca dəyərli kitablar və arxiv materialları mövcuddur. Bu mövzuda tədqiqat aparan hər bir kəs mərkəzin imkanlarından istifadə edə bilər.

Tədbirin sonunda Naxçıvan Musiqi Kollecinin tələbələri Naxçıvanşünaslıq Mərkəzinin fondları və oxu zalı ilə tanış olublar.

**Ramiyyə ƏKBƏROVA**

# İsti geyimlər hərbi hissələrə təhvil verilib

Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsi də tapşırılıb. Bu istiqamətdə muxtar respublikada ənənəyə uyğun olaraq hazırlanmış yun corablar hərbi hissələrə təhvil verilib.

Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov açaraq bildirib ki, məhdud fiziki imkanlı 19 nəfər tərəfindən toxunan yun corablardan 1400 cütü Əlahiddə Ümumqoşun Orduya, 300 cütü isə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına təhvil verilir. Bu tədbir həmin kateqoriyadan olan şəxslərin məşğulluğunu təmin etməklə onların maddi təminatlarının yaxşılaşmasına da öz töhfəsini verir.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik Niyaməddin Tağıyev bildirib ki, dünyada kifayət qədər nüfuz qazanan müstəqil Azərbaycan ordu quruculuğu prosesində də ardıcıl uğurlar əldə edib, Cənubi Qafqaz regionunun ən qüdrətli ordusuna malik güclü dövlətə çevrilib. Oktyabrın 18-də – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən hərbi parad bunu bir daha sübut etdi.

Qeyd edilib ki, muxtar respublika ərazisindəki hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı yüksəldilir. Fiziki imkanları məhdud insanlar tərəfindən toxunan isti geyimlərin hərbi hissələrə təhvil verilməsi artıq ənənə halını alıb. Dövlətimiz tərəfindən göstərilən bu diqqət hərbi qulluqçuların məsuliyyətini daha da artırır.

"N" hərbi hissənin əsgəri Əli Rəcəbli əsgərlər adından göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Sonda isti geyimlər hərbi hissələrə təhvil verilib.

**Nail ƏSGƏROV**




***Dan yeri söküləndə, qızılı parlaq günəş yerə nur ələyəndə görünür zirvələrdə qövsi-qüzeh rəngiylə insanı valeh edən adlı-sanlı bayrağım! Səhərin xoş mehində, küləyin avazında aram-aram süzülüb buludlardan nəm alan, pərvazlanan bayrağım!***

***Sən ey şanlı bayrağım! Nə qədər ki sən varsan, deməli, biz də varıq, düşmən yaxşı bilsin ki, biz Vətənsiz qalmarıq. Rəngini almısan sən uca göy qübbəsindən, titrəyib xanimanlar göytürkün nərəsindən. Gürşad öz qılıncını çıxaranda qınından, çox düşmənlər olmuşdu öz şirin canlarından. Göy Turan ulusumun, tariximin rəmzidir, onu indi yaşadan xalqımın igidliyi, əzəməti, əzmidir. Babək mətin duranda uca dağlar başında vardı əlində böyük, qırmızı rəngli bayraq. Bu rəng igidlərimin tökülən qanlarıydı, xalqın azadlığıyçün fəda edə biləcək bir quru canlarıydı. Çox igidlər can verdi azad ölkə uğruna, çoxlu qanlar töküldü müstəqillik yoluna. Tökülən qanlarısa unutmadı xalqımız, qan rəngiylə bəzəndi üçrəngli bayrağımız. Bu rəng həm də gələcək, müasirlik rəmzidir, gələcəyə baxışın, xoş sabahın səsidir. Yüz illərdir, ucalır minarədən azanlar, məscidlərə üz tutur milyonlarla insanlar. Bayrağımdakı yaşıl mənəviyyat rəngidir, dinimin nişanəsi, doğru yola çağıran islamiyyət zəngidir.***

***Ey mənim qürur yerim, ay-ulduzla bəzənmiş fəxr, qürur mənbəyim. İndi dalğalanırsan müxtəlif ölkələrdə, kölgən düşən yerlərdə adın gəzir dillərdə. Gün gələr, ucalarsan Ağdamımda, Şuşada, Xocalı, Qubadlıda. Kəlbəcər, Füzulidə, Xankəndi, Zəngilanda, Ağdərədə, Laçında. Yaşa, var ol, dünyada mənim əziz bayrağım, bu Vətən torpağında əbədi alovlanan şanlı odum-ocağım!***

**Səbuhi HÜSEYNOV**

## Vətənpərvərlik Vətənə sevgi və sədaqəti ifadə edir

***Tariximizin hansı səhifəsini vərəqləsək, orada igid babalarımızın keçdiyi qəhrəmanlıq yollarının izinə rast gələrik. Çünki yaşadığımız torpağı qorumaq üçün Vətən uğrunda mübarizə əsas şərtdir. Məhz bu amil vətənpərvərliyi şərtləndirir. Əsl vətənpərvər isə Vətənə məhəbbətini sözdə deyil, gördüyü işdə, çəkdiyi zəhmətdə, fəaliyyətində nümayiş etdirir. Məhz buna görə də vətənpərvərliyin meyarı söz ilə əməlin üst-üstə düşməsidir.***

Ümummilli liderimiz Heydər Əliyevin milli dövlətçilik, vətənpərvərlik ideyaları bugünkü inkişafımızın təməlini təşkil edir. Ulu öndərin milli şüur – vətənpərvərlik şüuru elmi yanaşması xalqımızın vətənpərvərlik tərbiyəsində əvəzsiz nümunəyə çevrilib, vətəndaşlarımıza Vətən sevgisi aşılayıb. Dahi şəxsiyyətin fikrincə, Vətən yalnız coğrafi ərazi deyil, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının şan-şöhrəti, qeyrəti, əyilməz vüqarı, qürur mənbəyi, bütün varlığı, taleyi, gücü, qüdrəti, əbədi səcdəgahıdır. Bugünkü müasir, müstəqil, çiçəklənən Azərbaycan bütün varlığını, ömrünü, zəkasını öz xalqına, millətinə həsr etmiş ulu öndərimiz Heydər Əliyevin bizə ən müqəddəs, ən ülvi əmanəti, yadigarıdır.

Özünü ölkəsinin əsl vətəndaşı hesab edən hər bir ləyaqətli, iradəli, əqidəli, vətənpərvər gənc millətin adı və varlığı ilə fəxr edir, onda milli xarakter və milli mənəviyyat formalaşır. Çünki milli mənlikdə milli ideal, milli ləyaqət, milli şərəf, milli birlik hissi, azadlıq, müstəqillik arzuları, milli qürur hissi təcəssüm olunur. Milli mənlik hər bir şəxsin özünün milli mənsubiyyətini ətraflı dərk etməsinə imkan yaradır. Milli mənliyi olan şəxs Vətənlə bağlı heç bir hadisəyə laqeyd qala bilməz. Ona görə ki Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün çalışmağa sövq edir.

Vətənpərvərlik insanın öz Vətəninə sevgi və sədaqətindən, doğma Vətənin siyasi, iqtisadi və mədəni tərəqqisi naminə çalışmaqdan və onun müdafiəsinə hər an hazır olmaqdan ibarətdir. Doğma yurda sədaqət həm də mövcud çətinliklərdən qorxmayıb vətəndaşlıq mətanəti göstərmək deməkdir.

Xalqımızın mədəni irsi başər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğundan çoxəsrlik tarixi keçmişdən yadigar qalmış tarix və mədəniyyət abidələrinə doğma münasibət, hər şeydən öncə, Vətənə məhəbbətin təcəssümüdür. Məhz buna görə də Vətənimizin keçmişinin şahidi olan tarixi abidələrə hörmət bəsləmək, xalqımızın tarixində milli qürur hissi yaradan, mərdlik simvoluna çevrilən tarixi qalaların əhəmiyyətini dərk etmək, qəhrəmanların döyüş yolunu öyrənmək, onların Vətən haqqında ibrətamiz kəlamlarını qavrayıb dərk etmək insanda vətənpərvərlik hissinin dərin iz buraxmasında müstəsna rol oynayır.

Təsadüfi deyil ki, xalqımızın yaratdığı şifahi xalq ədəbiyyatı nümunələrində və ədəbi mühitdə də vətənpərvərlik mövzusuna həssaslıqla yanaşılıb. Xalqımızın qədim dastanlarından olan, 13 əsrlik bir tarixə malik "Kitabi-Dədə Qorqud" dastanında yadellilərin Vətənə hücumu və xalqın öz yurdunu düşmənlərdən qoruması təsvir edilir. Bu dastanın bütün boyları vətənpərvərlik hissinin tərənnümündən ibarətdir. "Koroğlu", "Şah İsmayıl", "Qaçaq Nəbi" kimi xalq dastanlarında da vətənpərvərlik duyğuları əsas yer tutur.

Vətənpərvərlik yazıçı və şairlərimizin də yaradıcılığının aparıcı qüvvəsinə çevrilib. M.F.Axundovun, H.Zərdabinin, S.Ə.Şirvaninin Vətən sevgisi mücərrəd olmayıb, əməli işlə bağlı olan konkret vətənpərvərlikdir. M.F.Axundov yeni əlifbanın qəbul edilməsi uğrunda on illərlə mübarizə apararkən, H.Zərdabi ehtiyac içərisində yaşadığı halda, Azərbaycan dilində qəzet nəşr edərkən və ya S.Ə.Şirvani, həmçinin M.T.Sidqi pulsuz məktəb açarkən yalnız Vətənini, xalqın mənafeyini düşünüblər.

Hər bir ölkənin gələcəyi onun gənclərinin düşüncə tərzindən, intellektual səviyyəsindən, milli ruhundan və digər amillərdən asılıdır. Azərbaycan gəncliyi bütün dövrlərdə ölkənin taleyüklü məsələlərinə münasibətdə həlledici məqamlarda öz sözünü deyib. Ölkəmiz müstəqillik əldə etdikdən sonra gənc nəslin üzərinə daha böyük məsuliyyət düşür. Müstəqilliyin əldə edilməsində olduğu kimi, onun qorunub saxlanmasında da gənclərin rolu danılmazdır. Gənc nəsil həm də xalqın əsrlər boyu yaratdığı ənənələri, milli mədəniyyəti yaşadır və gələcək nəsillərə ötürür. Onlar dövlətin həm bu günü, həm də gələcəyidir.

Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkə üçün layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi dayanır. Müstəqilliyin üçüncü onilliyini yaşayan Azərbaycana məhz milli şüura malik vətənpərvər gənclər lazımdır. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti də məhz bu amala xidmət edir. Ulu öndər müstəqil düşüncə tərzinə sahib vətənpərvər nəslin yetişdirilməsini dəfələrlə qürur hissi ilə vurğulayaraq demişdir: ***"Məni həddsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var".***

Naxçıvan Muxtar Respublikasında da yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili, milli dəyərlərin qorunub saxlanması, vətəndaşlıq hisslərinin aşılanması diqqət mərkəzindədir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində yeniyetmə və gənclərin təhsili, sağlamlığının qorunması, asudə vaxtlarının səmərəli təşkili, vahid mərkəzdə eyni ideal ətrafında birləşməsi sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Eyni zamanda şəhid ailəsi və müharibə iştirakçıları üçün hərtərəfli şəraitin yaradılması, onların sosial problemlərinin uğurlu həlli də gəncliyin vətənpərvərlik tərbiyəsinə təsir edən amillərdəndir.

Milli və mənəvi dəyərlərə bağlılıq insanda öncə vətənpərvərlik hisslərini gücləndirir, sonrakı mərhələlərdə isə insanın əsl vətəndaş olmasında birbaşa rol oynayır. Bu baxımdan Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı müxtəlif layihələr icra edir, müstəqilliyimiz uğrunda şəhid olmuş həmvətənlərimiz, Milli Qəhrəmanlarımızın keçdiyi döyüş yolunun gənc nəslə çatdırılmasına çalışır.

*Vətənpərvər nəslin yetişdirilməsi vacib, çətin və kompleks bir vəzifədir. Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı bundan sonra da bu sahədə fəaliyyətini davam etdirəcəkdir.*

**Mirməcid SEYİDOV**
***Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri***

*İdman*

## Şahbuz rayonunda kikboksinq bölməsi fəaliyyətə başlayıb



Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının daha bir rayon bölməsi fəaliyyətə başlayıb. Kəngərli və Culfa rayonlarından sonra federasiyanın Şahbuz rayonunda da kikboksinq bölməsi yaradılıb. Burada məşqçi-müəllim Etibar Qəribovun rəhbərliyi altında 15-dən çox uşaq və yeniyetmə bu idman növünün sirlərini öyrənir. Artıq bölmə müəyyən kikboksinq avadanlıqları ilə təmin olunub.

Etibar Qəribov bizimlə söhbətində bildirdi ki, yeni fəaliyyətə başlayan bölmə kikboksinq idman növünün Şahbuzda kütləvi hala gəlməsinə şərait yaradacaq. Bölmənin yeni yaradılmasına baxmayaraq, artıq çox sayda uşaq və yeniyetmə bura müraciət edib. Səbəbi isə yaradılan şəraitdir. İlk olaraq məqsədimiz uşaq və yeniyetmələrin sağlam şəkildə böyüməsinə çalışmaq, onları qarşıdakı yarışlara və turnirlərə hazırlamaqdır. Eyni zamanda muxtar respublikada keçirilən yarışlarda uğur qazanıb ölkədaxili turnirlərdə iştirak etmək istəyirik.

Qeyd edək ki, kikboksinq məşqləri həftənin II, IV və VI günləri saat $14^{30}$-dan $16^{00}$-a kimi keçirilir.

## Şagirdlər arasında velosiped üzrə muxtar respublika birinciliyi keçirilib



***17 noyabr – Milli Dirçəliş Günü münasibətilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ümumtəhsil müəssisələrinin oğlan və qız şagirdləri arasında keçirilən velosiped yarışı üzrə muxtar respublika birinciliyinə yekun vurulub.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkil etdiyi birincilikdə 100-ə yaxın idmançı mübarizə aparıb. Yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimov, Hava və Ekstremal İdman Növləri Federasiyasının sədr müavini Azər Məmmədov birinciliyin qaydaları haqqında iştirakçıları məlumatlandırıblar.

Yarışda qızlar 800, oğlanlar isə 1200 metr məsafədə qüvvələrini sınayıblar. Qızlar arasında finiş xəttinə hamıdan tez Gülcan Vəliyeva (Naxçıvan) çatıb. Digər iki pillədə isə Sevgi Məmmədli (Naxçıvan) və Rəqsanə Nağıyeva (Şahbuz) qərarlaşıblar. Oğlanların mübarizəsində ilk üç pillənin sahibləri Kəngərli rayon məktəbliləri olublar. Belə ki, Hüseyn Cəfərov, Hilal Cəfərli və Nihad Məmmədli müvafiq olaraq I, II və III yerlə kifayətləniblər.

Sonda qalib idmançılar təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə təltif olunublar.

## Üç idmançımız respublika turnirində uğur qazanıb

Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının yetirmələri Bakı şəhərində keçirilən peşəkarlar arasında respublika turnirində mübarizə aparıblar.

Pirallahı İdman Kompleksində 10 komanda və 110-dan çox idmançının çıxış etdiyi Kempo Qarışıq döyüş növü üzrə turnirdə Naxçıvan Muxtar Respublikasını 3 idmançı təmsil edib.

Kişilər arasında 50 kiloqram çəki dərəcəsində mübarizə aparan Seymur Mürsəlov bütün rəqiblərinə qalib gələrək turnirin baş mükafatını qazanıb. Bu çəki dərəcəsində gənclərin mübarizəsində Nizami Hüseynov da eyni uğuru təkrarlayıb. Fərəc Quliyev isə 50 kiloqram çəki dərəcəsində bürünc medala layiq görülüb.

Sonda idmançılarımız təşkilatçılar tərəfindən diplom, medal və kubokla təltif olunublar.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 909